**2022-ci il üçün Bank Ombudsmanı fəaliyyəti haqqında**
**HESABAT**

Bank Ombudsmanı banklarla onların fiziki şəxs müştəriləri arasında yaranan mübahisələrin araşdırılması üzrə Azərbaycan Banklar Assosiasiyasının nəzdində artıq 6 ilə yaxındır müstəqil olaraq fəaliyyət göstərən orqandır. Əsas məqsədimiz banklar və fiziki şəxslər arasında müqavilələrin bağlanması, dəyişdirilməsi, icrası və ya xitam verilməsi ilə bağlı yaranan hüquqi və mülki mübahisələrin məhkəməyə müraciət etmədən aradan qaldırılması, insanların bank sisteminə etimadının gücləndirilməsi və əhalinin maarifləndirilməsidir.

Hazırda ABA-ya üzv olan banklarla onların müştəriləri - fiziki şəxslərlə əlaqədar mübahisələrin baxılmaq üçün Bank Ombudsmanına verilməsi haqqında Bəyannamə 23 bank və 1 bank olmayan kredit təşkilatları tərəfindən imzalanmışdır.

2022-ci ildə Bank Ombudsmanının fəaliyyəti dövründə 26 müraciət daxil olmuşdur. Müraciətlər üzrə, 9 qərar verilmiş və 7 Barışıq sazişi imzalanmışdır. Daxil olan müraciətlərin bəziləri Bank Ombudsmanının səlahiyyətlərinə aid olmadığı üçün aidiyyatı üzrə göndərilmişdir.

25 fevral tarixində Azərbaycan Banklar Assosisiasiyası, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası və Mediasiya Şurasının dəstəyi, "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin təşəbbüsü və təşkilatçılığı ilə mediatorlar üçün "Bankla müştəri arasında yaranan kommersiya mübahisələrinin əsasları" mövzusunda təlim təşkil olunmuşdur.

14 Mart tarixində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA), Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının və Mediasiya Şurasının dəstəyi, KOBİA yanında İctimai Şuranın təşkilatçılığı ilə dövlət qurumlarının və iş adamlarının iştirakı ilə təşkil edilən növbəti ictimai müzakirədə Bank Ombudsmanının Məsul katibi Elçin Həsənov iştirak etmişdir.

Bank Ombudsmanı İkram Kərimov Ölkə Başçısının Prezidentin 04 aprel 2022-ci il tarixli Sərəncamına əsasən, Azərbaycan Respublikasında hüquq sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə "Şöhrət" ordeni ilə təltif edilmiş, 18 noyabr tarixində Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri cənab Anar Bağırov tərəfindən təqdim edilmişdir.

18 oktyabr tarixində Azərbaycan Banklar Assosiasiyası (ABA) və Azərbaycan Respublikası Vəkillər Kollegiyası (Vəkillər Kollegiyası) arasında birgə qarşılıqlı əməkdaşlığa dair Memorandum imzalanmışdır. Tədbirdə Bank Ombudsmanı, Vəkillər Kollegiyasının üzvü və Kollegiyanın Ağsaqqallar Şurası sədri İkram Kərimov fəxri qonaq kimi iştirak etmişdir.

19 oktyabr tarixində Azərbaycan Ombudsman Aparatı və Milli İnsan Hüquqları Təsisatları İnstitutunun təşkilatçılığı ilə Bakı Beynəlxalq Konfransında iştirak edilmişdir.

24 oktyabr tarixində Azərbaycan Banklar Assosiasiyasının (ABA) icraçı direktoru Yunus Abdulov, Bank Ombudsmanının Məsul katibi Elçin Həsənov ilə Asiya İnkişaf Bankının (AİB) Bakıda səfərdə olan eksperti Massimiliano Gangini arasında görüş keçirilmişdir. Görüş zamanı Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Asiya İnkişaf Bankının da dəstəyi ilə icra olunan "İqtisadi diversifikasiya üçün qeyri-bank maliyyəsi və alternativ maliyyə alətlərinin inkişafı" layihəsi çərçivəsində istehlakçı hüquqlarının müdafiəsi, maliyyə savadlılığı sahəsində görülən işlər, istehlakçılara təqdim olunan maliyyə məhsulları və xidmətlər eləcə də, mövcud tənzimləyici baza ətrafında müzakirələr aparılmışdır.

14 noyabr tarixində Bank Ombudsmanının Məsul katibi Elçin Həsənov ilə Dünya Bankının nümayəndələri arasında "Maliyyə xidmətləri istehlakçılarının müdafiəsi" (FSMP2) layihəsi çərçivəsində görüş keçirilmiş, görüş zamanı istehlakçı hüquqlarının müdafiəsi, maliyyə savadlılığı, Bank Ombudsmanının fəaliyyəti, görülən işlər və gələcək planlar ətrafında tərəflər arasında geniş müzakirələr aparılmışdır.

28 dekabr tarixində Mərkəzi Bank istehlakçılarının və investorların hüquqlarını müdafiəsi üzrə şöbəsi, Mediasiya Şurası və Bank Ombudsmanı arasında görüş təşkil edilmiş, müzakirələr aparılmış və müvafiq İşçi Qrup yaradılmışdır.

Mediasiya fəaliyyətində Bank Ombudsmanının üzərinə düşən vəzifələr ilə bağlı digər qurumlara işlərin aparılması və Qanuna əsasən müvafiq tədbirlərin görülməsi istiqamətində işlər aparılmışdır. Bank Ombudsmanının Məsul katibi, mediator Elçin Həsənov mediasiya sahəsində səmərəli fəaliyyətnə görə 3 diplom və 2 sertifikat ilə təltif edilmişdir.